# Bir mehdən kövrəlir qara torpaqlar
# Əlvan gül-çiçəyin sirdaşı kimi



Yusif NƏĞMƏKAR

## DÜZ SÖZ

Düz söz başdan olar varaq içində;
Oraq ki, başaqdan baş biçə bilməz;
Yanar piltənin də çıraq içində
Başı kəsilməsə, nur saça bilməz...

## ... PAMBIQ OLSA

Alnın pambıq olsun bəyaz üzün tək,
Kövrəlib, ağlayıb, kiriməsən də.
Arxamca su atsın əlin gözün tək,
Yolun pambıq olsun, yürüməsən də.

Bəzən səs tanıyıb, sözü bilməyən
Doğruya qaçmağın astası olur.
Bir milçək boğazı üzə bilməyən
Pambıqla baş kəsmək ustası olur...

Pambıq öy, pambıq gey; məğrursan əlbət,
Göz yum əyilməyə, yum şaqlıq üçün.
Sadəlik, sayalıq - pambıq təbiət,
Qəlbin pambıq olsun - yumşaqlıq üçün.

Düzün pambıq olsa, hər tövrə qatlan,
Süvari ayaqlar başdan da keçər.
Sıldırım sərtlərin üstündən atlan,
Sözün pambıq olsa, daşdan da keçər.

## PAMBIQ RƏNGLİ ÜZLƏ

Qəzəblə "əlvida!" qərarı çıxarmış könlümün
Peşiman əfvi kimisən.
Çiyidindən təmizlənmiş
pambıq lifi kimisən.
Qarşıda hələ
mahlıclanmaq,
Əyrilmək,
Sıyrılmaq,
Düyçələnmək,
Kələflənmək,
Əlvan-əlvan yumaqlanmaq durur.
Ürəyim vurur,
Sürəyim - qürur.
Sinəmdə sənə
qürurumdan qabarmış
duyğular bəsləmişəm.
Səni pambıq rəngli
ağ üzlə süsləmişəm.
Gözlərimin qətran qarasını,
pambıq ağlığını
cilvələyən didəsən.
Yetər ki,
Əfvimi qəbul edəsən...

## BİR GÜN DƏ LƏNGİYƏN SEVGİ

Pambıq toxumuna bənzər illər...
Əl uzatdığım
pambıq kimi əllər...
İllərdən cücərən,
Bitirəni ağ aran,
Ağca bənizi ağaran,
Tufanlardan ötüşən,
Yetimində yetişən
Pambıq yumşaqlığında
bir gün...
Pambıq kimi bir kəlmə...
Əlim
pambıq kimi əllərdə
uyumaq istədi.
Xəyallarım
gün yandıran pambığa açılmış
su tək
axdı iti-iti.
Əllərimi üşütdü
o ürəyin
yağmurlu hava şəraiti...
Ərkinə dəyən soyuqdan
titim-titim titrəyən barmaqlarım
yumruqlanıb
həyasını sıxacaq ovucuma yığışdı;
Bir gün də ləngidi
"pambıq" "yığımı" -
Yağışdı...

## ÖZ İÇİNDƏN KÖZƏRƏN...

Bu dərdin dəvasızlığı
dondurdu məni.
Dünyanın vəfasızlığı
qandırdı məni.
Ayrılıq neyinin
Sənin qəlbindəki nəvasızlığı
usandırdı məni.
Öz içindən közərən pambıq kimi
Həsrətinin havasızlığı
yandırdı məni.

## NƏYİM QALDI...

Ləpə idim,
eşqin dağa döndərdi.
Poladdım, dəmir idim,
nisgilin
Məni düzəndə
Qardağında - qərzəyində
yana-yana bozaran
pambığa döndərdi.
Nəyim qaldı könlümdə -
Pambıq cərgəli
sətrimdən başqa?!
Qardağdakı pambıq lopası tək
izimizə yuvalanan
Xatirəmdən başqa?!.

## AĞARSA DA...

Pambığın
anası torpaq,
Atası Günəşdir.
Onunçün də
təbiəti yumşaq,
Qəlbi genişdir.
Yerlə göy arasında
ağ günlü sultandır.
Qızıl xasiyyətlidir -
"Ağ altun"dur.
Anası torpaq
Atası Günəş
ondan üz döndərsə,
Qovrulub yanmaqdan
qaraya bürünər,
Kefi çağ olmaz.
Ağappaq ağarar, ağarar pambıq,
Amma "ata-ana"sının
üzünə ağ olmaz.

## OLSA-OLSA...

Üzüağ
Ya üzüqara adam olsun,
Fərqi yox,
bir gün rəngsiz,
pambıq rəngli
Şəffaf suyla yuyulacaq.
Torpağa qoyulanda
ağzına torpağın bitirdiyi
bir çəngə pambıq qoyulacaq...
Ağır-ağır
daş daşımaq mümkündür.
Amma pambıq yükünü
daşımaq olmur.
Daş kimi bir küncə diyirlənib
gizlənmək mümkün,
Neyləsən də, dünyada
pambıq kimi yaşamaq olmur.
olsa-olsa,
pambıqsayaq nəm çəkməlisən,
İnsansayaq qəm çəkməlisən...

## MÜRƏKKƏB ATMAQ

Hər dəfə
əlimə qələm alanda
Əkinçiyəm.
Yazıb bitirdiklərimi
Sətir-sətir "itirdiklərim"i
oxuyanda
Biçinçiyəm.
Metafizik düşünməyəndə;
torpaq altda çiyid,
torpaq üstdə pambıq,
iplik,
Bir də son "məhsul" -
qəriblik...
Beləcə ömrüm -
hər dəfə
qələmimdən mürəkkəb atmaqdır
hədəfə...

## YAŞILA ALDANMA - AĞACLARA HEYİFİM

Ağaclara heyifim gəlir.
Budanacaq budaqlarına,
Budaqlarının
dolaşacaq çarpaz qadaqlarına,
qadaqlar üstündə açılmış
tumurcuqların
yaşıl dolaqlarının
ləçək təbəssümünə heyifim.
Təbəssümün tül yaşılına,
Tül yaşılın -
tünd yaşılın
İşım-işım işılına
heyifim.
Ağacların budaqlanmasına,
Budaqların ağaclanmasına
Ağacların daşlanmasına
heyifim.
Heyifim gəlir ki,
ağaclar budanacaq -
ölüm yaşıla aldanacaq...

## BOĞULAN HARAY

Meşənin qoynunda sakitlik yaşar;
Səs-səmir təslimdir yaşıl sığala.
Ağaclar istini çiynindən atar,
Bəlkə bürkü boğan güllər sağala...

Dinclik aşiyandır dərəyə, düzə,
Yayın sakitliyi heç ələ düşməz.
Gecə küy sovqatı saxlar gündüzə,
Aləmin dinməzlik hökmü dəyişməz.

Nə budaq tərpənər, nə zoğ yellənər,
Yarpağın gövdəyə pıçıltısı yox.
Nə şax qadaxlanar, nə şiv millənər,
Yanan fidanların hıçqırtısı yox.

Təbiət ruhuma əl vermək üçün
Ovub, sərinlədər qaynar yayımı.
Belə sakitliyi sinirmək üçün
Boğar vurğunluğum hay-harayımı.

## DAĞLARDA YERİM

Yapış bir əlimdən, göyrüş budağı,
O biri qolumu qanad edərəm.
Qucmağa gəlmişəm bu ulu dağı,
Zirvəyə qalxmağa
inad edərəm...

Köpüklü çaylardan varıb gəlmişəm,
Tufanlar çəkilmiş qaşımın üstdən.
Mən çəni, çiskini yarıb gəlmişəm
Buludlar dağılsın başımın üstdən.

Vələs, göy şaxını kölgəlik elə,
Sən də, ana palıd, dirəyimdə qal.
Çökədən çəkilən bal düşməz ələ,
Arı duyğularım, ürəyimdə qal.

Yerin ağız tamı - quzey qar bəyaz,
Görünən yol şirin, çəndə dağ acı.
Yarpaq pıçıltınla qulağıma yaz
Yaşıllıq qanunu, dəndə ağacı,

Əyri yal-yoxuşlar tövşütsə məni
Cığır ayağımda dolanbac olsun.
Qayanın kölgəsi üşütsə məni
Saflıq hərarəti başa tac olsun.

Gəlmişəm od saçım buz gədiklərə,
Qartallar qıyında şərimi tapım.
Nəğməkar adımı yazım diklərə,
Dağlar cərgəsində yerimi tapım.

## HAÇALIQ

Ana təbiəti seyr edib gendən
Meşəli dərənin endik qaşına.
Haçagövdələrə tuş gələn gündən
Vurulduq xilqətin bu naxışına.

Qırılmaz bir cığır gətirdi bizi,
Çöl, çəmən sevgidən tez halı olmuş...
Düşündük: nədəndir bir qəlbimizi
Titrədən bir ağac haçalı olmuş?!.

Qalanıb bir eşqə əmci ucları,
Nəfəs-nəfəsədir qadaqlar ancaq.
Kökləri bir deyil bu ağacların,
Qucaq-qucağadır budaqlar ancaq.

Qoşaca sarmaşan sevgili qollar
Cütlüyü, dördlüyü, səkkizliyidir.
Üz-üzə göy zoğlar üstündə xallar
Haça gövdələrin əkizliyidir.

Dözüb, əyilməyib tufana, selə,
Qüruru, inadı, ucalığıyla.
Eynən bir adamdır bu ağac elə
Qoşa qol qaldırıb haçalığıyla.

Üz-üzə dayanan məğrurluq qala,
Qala məğrurluğu parçalanmasın.
Ağac xislətində haçalıq ola,
Bizimsə yolumuz haçalanmasın.

## MÖCÜZƏ SEANSI

Böyüyüb, tutuşub zümrüd çataqlar,
Barlı şaxələrin dirəyindədir.
Xeyirxah əl kimi iri budaqlar
Xırda budaqların kürəyindədir.

Gövdələr not kimi sıralanmada,
Yamacı yeddicə sətir tutubdur.
Bir budaq günəşçün aralanmada,
Bir budaq günəşə çətir tutubdur.

Ağca qanadından vərəq bağlayıb
Yazır qaratoyuq lələk dilində.
Allı ağacdələn ritm saxlayıb;
Ötür meşə xoru külək dilində.

Düyümlər, buğumlar an-an qovuşub,
Puçurun saf arzu, kam nəfəsindən.
Çinara, palıda, elə yovuşub,
Yovşan ətri gəlir şam nəfəsindən.

Ləpəsi düzülür sıra-lək ilə,
Ceviz pərdə çəkir kal arasına.
Kəpənək laylanır kəpənək ilə,
Çiçək nektar verir bal arasına.

Filmdir çəkilən gül odasına,
Al-əlvan kadrlar girəvəsidir.
Təbiət əl qatıb öz ədasına;
Möcüzə seansı ərəfəsidir.

## ÜZÜ PAYIZA

Üzü payızadır, ötən zamanı
Bulaqlar oxşayıb, çaylar ağlayır.
Qayalar çit kimi biçib dumanı
Başına bəmbəyaz örpək bağlayır.

Bir mehdən kövrəlir qara torpaqlar
Əlvan gül-çiçəyin sirdaşı kimi.
Həsrət sarısına dönüb yarpaqlar
Düşür budaqların göz yaşı kimi.

Açır sinəsini odlu diləklər
Axşamın, səhərin sərinliyinə.
Şəlalə gözəllər, bulud mələklər
Batır yuxuların şirinliyinə.

Güneylər həsrətkən qar havasına
Yenə buz bağlayır quzeyin üzü.
Şeh düşür quşların daş yuvasına,
Tərk edir şəfəqlər dərəni, düzü.

Zərif kəpənəklər çölü unudub,
Yellər də çən çəkib, ayaz gətirir.
Elə bil təbiət əlindən tutub
Nəğməkar ömrümə payız gətirir.

## YÜK ÜSTDƏ YÜK

Palıd gövdəsinə sərilib mamır;
Deyirsən tünd yaşıl məxmərdi elə.
Qəlbimə "açıq yol!" işığı damır,
Ağac adamların yox mərdi elə...

İşıq gah sevinər, gah da yaslanar,
Özgə sevinc, kədər aramaz palıd!
Palıdın üstündə mamır islanar,
Mamırın altında qurumaz palıd.

Dözümün başından tufan sovuşub,
Qüruru qorxuyla doyurmaq olmur.
Palıd sevgisinə elə qovuşub,
Mamırı gövdədən ayırmaq olmur.

Palıdtək mənimçün qovuşuq məqbul,
Mamır söz çiynimdə məndən böyükdür.
Söz yüküm ömrümə yamyaşıl bir yol,
Yüksüz ömrün özü yük üstdə yükdür...

## BAŞIAÇIQ KİŞİLƏR, BIĞSIZ KİŞİLƏR...

Nə payız bildiniz, nə qış, nə bahar,
Yanar qəlbinizi buz etdi qəhər.
Dözdünüz, qəm-libas geyib birtəhər...
Başıaçıq kişilər, bığsız kişilər,
Sizə necə deyim haqsız kişilər?!

Rüzgarın gözündə yaş olmadınız,
Tərəziyə pərsəng - daş olmadınız,
Dünyadan baş açıb, baş olmadınız,
Başıaçıq kişilər, bığsız kişilər,
Sizə necə deyim haqsız kişilər?!

Nə dedim - qoy sözüm ağ olur-olsun,
Tək canla başınız sağ olur-olsun...
Olmayan papaqla bığ olur-olsun,
Başıaçıq kişilər, bığsız kişilər,
Sizə necə deyim haqsız kişilər?!

Dağ getdi, dağ adam düzəmi qaldı,
Bığ, saqqal ötməyən sözəmi qaldı?!
Bu açıq-saçıqlıq sizəmi qaldı -
Başıaçıq kişilər, bığsız kişilər,
Sizə necə deyim haqsız kişilər?!

Zülmün daşqın seli arx ilə gəlib,
Min ilə, yüz ilə, qırx ilə gəlib
Bu torpaq qırxıla-qırxıla gəlib
Başıaçıq kişilər, bığsız kişilər,
Sizə necə deyim haqsız kişilər?!

Yağmurda ağacam göy yarpağım yox,
Mən də qaynar qazan, heç qapağım yox
Başımı qoruyan bir papağım yox,
Başıaçıq kişilər, bığsız kişilər,
Sizə necə deyim haqsız kişilər?!

## EŞQİMƏ CAVABIN

Cavabın ağ saldı ağın üstünə,
Ağ olan sözünə həsrət çökdü çəm.
Sinəmə çəkdiyim dağın üstünə
Soyuq Karvanıyla çəhlim çəkdi çən.

Mənsə o karvanı yedəkləməkdən
Sükut dərəsində dumana düşdüm.
Hicran tüstüsünü ətəkləməkdən
Odu söngiməyən zamana düşdüm.

Dinləyib çiynini çəkməyin sirdi,
Susqun bir sualsan, nidan neyləsin?!
İki oda müştaq yanmağın birdi...
İki od arası adam neyləsin?!

Bir xumar baxışın umacağımdı,
Dumana bürünüb istindən qaçma.
Ruhumu oynadan bahar çağındı;
Ölündən dirindən, məstindən qaçma.

Eşqimə cavabın nə dərd, nə əlac,
Qulaq as qəlbinin öz diqtəsinə.
Könlün qapısını döyən mənəm, aç,
Gəldim "yox" sözünün redaktəsinə...

Ədəbiyyat.- 2016- cı il.- 17 dekabr.- S. 27.